* * *

Nə çox toxunursan nazik könlümə,
Ey hissə, duyğuya yabançı olan.
Hisli çıraq kimi sönük ürəyi
Quru bədənində getdikcə solan.

Mən könül mülkünün tacidarıyam,
Xəyal dünyasının şah nigarıyam.
Vətən torpağında iftixar olan
Şanlı nəsillərin yadigarıyam.

Mən batan günəşə məlal vermişəm,
Ruhlara ilhamı səyyal vermişəm,
Məndən qanad almış yerdə sürünən
Cansız kötüklərə xəyal vermişəm.

Könlümdə sönməyən bir işıq yanır,
Onu sən yandırdın məhəbbətinlə,
Elə bil nurlandı gözümdə cahan,
Elə bil nur yağdı çiçəyə, gülə...
Onu sən yağdırdın məhəbbətinlə...

* * *

Nə həzin, nə qəmli keçərdi axşam,
Çıraqlar yananda sən gəlməsəydin,
Nə sönük, nə ruhsuz olardı ilham,
Xəyalım evində yüksəlməsəydin.

* * *

Vüsalın həyatdır, hicranın ölüm,
Sən bir ürəkdən gül, qoy mən də gülüm,
Gecələr heç yuxu yatmazdım, gülüm,
Sən sinəm üstündə dincəlməsəydin.

* * *

Sevgilim könlümü aldı əlinə,
Solğun bir gül kimi oxşadı atdı.
O gündən qəlbimdə sönən bir eşqi
Bu səhər səslənən bahar oyatdı.

* * *

Nə şöhrət istədim, nə şan istədim,
Bu dünyada təmiz vicdan istədim.
Demədim illərlə gəlsin səadət,
Ömrümdə bəxtiyar bir an istədim.

* * *

Ondan nə bir əsər, nə də bir nişan,
Bir ilham qalmışdı, o da pərişan.

QƏZƏLLƏR

Yenə yarım bu gecə könlümə mehman olmadı,
Bəzmə saldı meylini saf üzə heyran olmadı.
Keyfi əğyar ilə çəkdi özgələr məclisində,
Yarım öz yarı ilə bir dəm mehriban olmadı.
Axıdıb göz yaşımı mən gecələr çox ağladım,
Nədən ol rəhmsizin halı pərişan olmadı.
Dedilər, gül kimisən, gül ki, fəğan etməz, Nigar,
Dedim, ey hansı gülün bağrı dolu qan olmadı.

* * *

Könlün yenə min dərdinə bir çarə tapılmaz,
Bir dərdimi ərz eyləyən ol yarə tapılmaz.

Axşam qızaran göylərə endikdə qaranlıq,
Könlüm evini yandıran odlarə tapılmaz.

Bir incə gülün, bir çiçəyin aşiqiyəm mən,
Şərh eyləyən ol sirrimi dildarə tapılmaz.

Çıxdım gecələr seyrinə ahəstə o mahin,
Gördüm ürəyimtək alışan narə tapılmaz.

Aşiqlərə sordum, dedilər: ey qəmi pünhan,
Gizlin yaradan ağrısı çox yarə tapılmaz.

Min tən eləyib eşqinə öldürdü Nigarı,
Bilməm necə oldu, o gözü qarə, tapılmaz.

* * *

Unudulmuş da, atılmış gülü sevda kimiyəm,
Gözlərindən çəkilən bir dəmi röya kimiyəm.

Hicr əlindən ürəyim qanə dönər şamü səhər,
Üzünün nuruna həsrət şəbi-yelda kimiyəm.

Neyləmişdim sənə mən, beylə vəfasız çıxdın,
Həsrətindən üzülən bülbülü-şeyda kimiyəm.

Hər keçən yolçudan ağlar gözüm əhval sorar,
Hər buluddan su uman bir quru səhra kimiyəm.

Sənə bel bağladım, atdın məni, ey munisi can,
İndi sənsiz yaşaram, tərki-dünya kimiyəm.

Əhdə sadiq, gözü yollarda Nigaram sənsiz,
Bivəfa, eşqinə pərvanə Züleyxa kimiyəm.

* * *

Başından tufanlar keçən bir dağa
Zərərsiz bir şimşək neyləyə bilər?!
Çəməndə qızılgül məclis quranda,
Ətirsiz bir çiçək neyləyə bilər?!

İllərlə yorulub acı sevdadan,
Dincəlmək bilməyən ömründə bir an,
Hicran atəşiylə yanıb-yaxılan,
Külə dönmüş ürək neyləyə bilər?!

Dedim ki, bu dünya bəlkə düzələ,
Canan da bir azca insafa gələ.
Yarı vurulanda özgə gözələ,
Nigar, deyin görək, neyləyə bilər?!

GƏLDİM Kİ...

Gəldim ki, and içim, peyman eyləyim,
Canımı canına qurban eyləyim.
Gəlmədim ki, yıxıb eşqin mülkünü,
Könlüm sarayını viran eyləyim.

Qonaqdır dünyada insan əzəldən,
İyrəndim hər çirkin işdən, əməldən.
Hissiz gözəllikdən, duzsuz gözəldən,
Necə dad eyləyim, aman eyləyim.

Sınan ürək bir də çətin sağalır,
Eşqin atəşindən bircə kül qalır.
Səni gözləyirəm, yollar qaralır,
Gözümü nə qədər giryan eyləyim?

Gəlsən də bir indi, gəlməsən də bir
Xəyalın könlümün can evindədir.
Qorxuram öldürə məni bu səbir,
Qoyun bir ağlayım, fəğan eyləyim.

* * *

Yuxunu qaçıran mənəmsə əgər,
Niyə məndən qaçırsan?
Könlünü dağıdan bu qəm, bu kədər
Mənimsə,
niyə məndən qaçırsan?
Bir kəlmə danışmazsan görsə bir adam,
Bəs təklikdə nə üçün
mən sənə yadam?
Mən ki, sənin könlündə
yaşayan bir fəryadam,
Niyə məndən qaçırsan?
Məhəbbət günü kimi
parlasın gərək,
Könüldə sevgiyə açılır çiçək.
Pərişan halınla
Hər məni görcək
Niyə məndən qaçırsan?

YANDIM, YANDIM

Sənin acı həsrətinlə
İllərlə yandım, yandım.
Susuz qalan çiçəklərlə,
Güllərlə yandım, yandım.

Hardasan, başımın tacı,
Hardasan, dərdim əlacı,
Zəhər kimi acı-acı
Dillərlə yandım, yandım.

Sənsiz çox pərişan oldum,
Tənələrə nişan oldum.
Səhra kimi büryan oldum,
Yellərlə yandım, yandım...

BİR GÜN SƏNİ GÖRMƏYƏNDƏ

Qüssə qılınc kimi kəsir
Bir gün səni görməyəndə.
Ürək yarpaq kimi əsir
Bir gün səni görməyəndə.

Bulud kimi hey doluram,
Elimdə qərib oluram.
Həm saralıb, həm soluram
Bir gün səni görməyəndə.

Güllər açılmamış solur,
Sünbüllər saçların yolur.
Könül dərdli, qəmli olur
Bir gün səni görməyəndə.

* * *

Nə gözəldir son baharın
qızıl pərli paltarı,
Meşələrə
yanğın salan ağacların
alov rəngli yarpaqları.
Yaşıl məxmər örtüklü düzlərə
ağaclardan əlçim-əlçim
Qızıl, sarı yarpaqlar tökülür.
Solğun günəş
üfüqdən qəmli-qəmli gülür,
Payız, barlı payız,
qəmli, qübarlı payız,
Qapıları qış alacaq,
qəmli-qübarlı payız,
təbiət yerə ağ bir örtük salacaq.
Dərələrdən
yasəmən rəngli dumanlar
sürünəcək.

Gecələr ay
buludların arasında
oğrun-oğrun görünəcək.
Qış gəlir,
qışın nə gücü var –
Könüllərdə bahardırsa
ürəklərdə qaynayıb-coşan
sonsuz böyük arzulardırsa.

DOYMADIM

Nəcib, mehriban bir insanla
ömür sürdüm;
Dostlarımdan, yar-yoldaşımdan,
Məhəbbət, ehtiram gördüm.
Balalarım ləkəsiz böyüdü,
Qulağımdan çıxmadı
babalarımın
namusla yaşamaq öyüdü.
Arabir sancan da oldu məni
qadınlar arasında,
Gizlətdim bu kiçik ağrıları
ürəyimin sağalmayan yarasında.
Gözəl insanların
söz-söhbətindən doymadım,
Yasəmən ətrindən,
dost məhəbbətindən doymadım.
Şirin dilli, şux təbiətli
Vətən gözəlindən doymadım.
Sevdiyim, çox sevdiyim
Füzuli qəzəlindən doymadım.
Səfalı yaylaqlardan doymadım,
Sərin bulaqlardan doymadım.
Dağ döşündə yırğalanan
güldən, çiçəkdən doymadım.
Muğam dinləməkdən doymadım.

Arzulardan, xəyallardan doymadım.
Bəzən cavab tapdığım,
Bəzən də tapmadığım
suallardan doymadım.

DÖZƏ BİLMİRƏM

Mən tanıdığım və
tanımadığım adamların
ağlamağına
dözə bilmirəm.
Həsrət ağrısına,
ayrılıq dağına
dözə bilmirəm.
Məhəbbətdən yaralanmış,
Yar-yoldaşından aralanmış,
Dirilərin cərgəsindən
Adı, sanı qaralanmış
Nakamların qismətinə
dözə bilmirəm.
Dərdinə, möhnətinə
dözə bilmirəm.
Külək əssə
budaq sınar.
Ağlayanda ağlayaram,
Dərdlilərə canım yanar.
Başqasının ağrısına
soyuq baxsam,
Elim, obam məni qınar.
Dərdli bir qəlb ağrısına
dözə bilmirəm.
Bu dünyadan vaxtsız gedən
cavanların yarasına
dözə bilmirəm.
Xoşbəxt ola bilməz insan
Yanında dərd-kədər olsa.
Öz sevinci, səadəti

Lap bu dünya qədər olsa.
Günəş olsun,
bahar olsun
gülsün cahan,
Gülsün aləm,
mən olmasam belə,
nə qəm?

ANA MƏHƏBBƏTİ

Mən analıq duyğusunu
Qul etmədim şan-şöhrətə.
Ən müqəddəs hisslərimi
Bağladım bir məhəbbətə...
Üç beşiyin arxasında
Bəzən sübhədək oturdum,
Nəğmələrdən, şeirlərdən
Mən onlara dünya qurdum.
Gözlərim yuxusuz qaldı
Üfüqdə dan söküləndə...
Al şəfəqlər saçaq-saçaq
Otağıma töküləndə...
Körpələrin dodağında
Xoş gülüşlə açdı səhər.
Mənim könül aləmimdən
Uçub qalxdı xoş nəğmələr...
Yuxusuzluq yandıranda
Gözlərimin səhər üzü,
İsindirdi ürəyimi
Ana sözü, ana sözü...
Bu söz körpə dodağında
Nə dadlıdır, nə şirindir,
Ana-bala məhəbbəti
Nə zərifdir, nə dərindir...
Qoruyaq bu məhəbbəti
Bədnəzərdən, bədnəfəsdən,

Qoruyaq bu məhəbbəti
Kobud səsdən, acı səsdən.
Ana-bala məhəbbəti
Dünyanın arzularıdır,
Bu analar, bu körpələr
İnsanlığın baharıdır.

ANALARIN SƏSİ

Fəcrin qızıl rənglərilə
boyananda mavi göylər
Dünyanın hər tərəfindən
anaların səsi gəlir.
Bizim şanlı yurdumuzda
açılanda aydın səhər
Hər ananın ürəyində
yalnız bir amal yüksəlir.
Bizim xoşbəxt övladlara
qara günlər hazırlayan,
Vaxtsız ölüm köynəyini
cavanlara biçən qatil!
Bu uğursuz niyyətinlə
bir əl saxla, sən bir dayan,
Anaların fəryadından
kül olarsan sən bunu bil.
Min arzuyla övladına
həyat verərkən analar
Həyat verər – Yer üzündə
ömür sürsün şən, bəxtiyar.
Çiçəklərin ətri ilə
nəfəs alsın, o, boy atsın.
Onu quşlar nəğməsilə
yuxusundan tez oyatsın.
Azad, böyük vətənimin
olsun xoşbəxt bir övladı
Xəyalının aynasında
görünməsin möhnət adı...

Fikrin dərin kitablardan
zəka alsın, gövhər alsın
Xalqın ölməz dastanından
mərdlik, qüvvət, hünər alsın.
Elin şirin nəğməsilə,
gülsün boya-başa çatsın.
Azad əmək dünyasında
qalxsın, kamil yaşa çatsın.
Anaların istəyidir
övladını xoşbəxt görmək,
Min qayğıyla bəslədiyi
bağçalardan bar götürmək.
Bu müqəddəs arzulara
hər xor baxan cinayətkar
Anaların üsyanıyla
yerə düşüb olacaq xar.
Böyük vətən davasında
oğlu ölmüş hər bir ana
İnsanları sülh uğrunda
qaldırır bax, bir üsyana.
Bizim şanlı yurdumuzun
işıq görmüş anaları
Qoymaz
zülmət dünyasını
çulğalasın ilk baharı.

ŞAİR TALEYİ

Şairin üstündə rüzgarlar kimi
Həm sağa, həm sola birdən əsməyin.
Hələ səsi gəlir, nəfəsi gəlir,
Onu basdırmağa çox tələsməyin.

Özgə bir dünyadır şair aləmi,
Gizlində saxlanar qüssəsi, qəmi.
Qırılsa şairin bir gün qələmi,
Qırıb hər ümidi ondan kəsməyin.

Torpağın altında xəzinə yatır,
Çox zaman bilinməz orda nə yatır.
Şairin könlündə qərinə yatır,
İncə duyğuları qırıb əzməyin.

Heykəl də qoymayın şairə vaxtsız,
Zaman sınağından qoy qalib çıxsın.
Nə oxucu ona söyləsin baxtsız,
Nə dövran uçurub heykəli yıxsın.

Qəlblərdə yaşasın onun heykəli,
Şeri məşəl kimi illəri yarsın.
Gələcəyin xoşbəxt nəsillərinə
Əsrindən, dövründən salam aparsın.

* * *

Sönüb gedən qadın gözəlliyini
kimi batan günəşə bənzətdi,
kimi – son bahara;
Kimi payız günləri əsən
soyuq nəfəsli ruzgara.
Ana qürubdursa əgər
övladları bir səhərdir.
İlk baharda ətir saçan
gözəl-gözəl çiçəklərdir.
Qürubun da sabahı var,
son baharın yazı vardır.
Çiçəklənən gənc nəsillər
qürub edən analardan yadigardır.

* * *

Mən sənin torpağından
Boy atmışam, vətənim...
Dirçəlmişəm, qalxmışam,
Dənli sünbül olmuşam.

Eşqini ürəyimdə
Yaşatmışam, vətənim.
Min nəğməli, min sözlü
Coşqun könül olmuşam.
Mən səndən öyrənmişəm
Eşqi də, nifrəti də.
İnsana, təbiətə
Sonsuz məhəbbəti də...
Bir gün sinəmdə əgər
Çırpınmasa bu ürək,
Torpağın altda belə
Sənin böyük eşqinlə
Həmişə döyünəcək...

* * *

Yol üstündə bitən körpə çinarlar,
Böyüyün, kölgəli ağaclar olun,
Sayəniz yollardan əskik olmasın,
Yaşayın, göyərin, novbahar olun...

Yol keçən yolçular dincini alsın,
Sərin kölgənizdə qonaq da qalsın.
Yaşıl budağınız kölgələr salsın,
Vətən yollarında düz ilqar olun.

Dözər hər tufana uca başınız,
Kökünüz torpağın ürəyindədir.
Əsən küləklərdir can sirdaşınız,
Qalxsın böyük güneş, sizə yar olsun...

Yol üstündə bitən körpə çinarlar,
Böyüyün, kölgəli çinarlar olun,
Sayəniz vətəndən əskik olmasın,
Ucalın, göyərin, novbahar olun.

YASƏMƏN

Yasəmənin ilk budağını
mənə verin, qızlar,
mənə verin.
Axı siz onu iyləyib,
qoxlayıb
Solan kimi atacaqsınız,
Evinizdəki lazımsız, gərəksiz şeylərlə
zibillərə qatacaqsınız;
Mən onu ürəyimin başına qoyacağam.
Nə iyindən, nə rəngindən,
Nə tamaşasından doyacağam.
Mən ona şeirlər,
nəğmələr qoşacağam.
Çovğunlu qış günündə
həzin-həzin yada salıb
yasəməni,
Bahar eşqiylə coşacağam.
Elə nəğmələr qoşacağam ki, ona
Qışda yasəmən ətirli ruzgarın
nəfəsi gəlsin,
Yasəmən budaqları
yırğalansın qış günü
evimizdə,
Qaranquşların qanadında
baharın səsi gəlsin...

* * *

Məni hər görəndə,
özündən dedin...
Özündən danışdın
baharda, qışda,
İnsanı ucaltmır
özünü öymək,
Ucaltmır inan ki,
bircə qarış da...

* * *

Demirəm, dünyadan köçüb gedəndə
Vətəndə şöhrətli bir adım qalsın.
İstəyirəm bircə həzin xəyalım,
Bir də uçmaq istəyən iki qanadım
qalsın.

Nəsillər aparsın qanadlarımı,
Aydın üfüqlərə eləsin pərvaz.
Böyük arzuları, saf duyğuları
Torpağın altında basdırmaq olmaz.

SALAMLAR

Birinin gözləri gülür
salam verəndə.
Birinin könlünün işığı
gözlərinə tökülür
salam verəndə.
Biri həzin, qəmli salam verir,
Biri sərxoş kimi
dəmli salam verir...
Biri təmkinlə,
ağır-ağır salamlaşır,
Biri yaman
fağır-fağır salamlaşır...
Biri buz kimi soyuq,
şaxtalı salam verir,
Birinin dağınıq fikri,
xəyalı salam verir.
Biri rəsmi salamlaşıb keçir,
Biri salam vermək əziyyətindən
uzaqlaşıb keçir.
Biri acı, istehzalı
salam verir,
Biri xeyli təkəbbürlü,

Xeyli ədalı salam verir.
Biri salam vermir
Rütbəsi böyüyəndə.
Biri salamlaşmayır
Yoldaşımla arası dəyəndə.
Biri minnətlə salam verir,
Biri xeyli əziyyətlə
salam verir...
Sadə salamları sevirəm.

İSTƏSƏM

İstəsəm
dağı dağ üstə qoyaram,
İstəsəm torpağın dərisini soyaram.
İstəsəm
Yer kürəsinin başında
tufan olub əsərəm.
İstəsəm
nəsil-nəsil insanların kökünü
Yer üzündən kəserəm.
Güclüyəm, amansızam, möhtəşəməm,
amansız qüssəyəm, qəməm.
Xəyallar arxamca sürünür,
Dünən dağ boyda görünən
Taun, vəbanı elmin əliylə
boğdum.
Çiçəyi, qara qızdırmanı
diyar-diyar qovdum.
Xirosima faciəsinin şahidiyəm,
Kosmos fatehlərinin
əlini sıxmışam.
Yeni aləmlər açmışam,
köhnə dünyanı yıxmışam.
Atom nəfəsliyəm,
Azadlıq həvəsliyəm,
İnqilab səsliyəm.

İyirminci əsrəm mən,
Ölümlərin, fəlakətlərin
yolunu kəsirəm mən.
Hər sirri, hər hikməti
bilməliyəm.
İnsanın insanla düşmənliyini
silməliyəm.

TAHİR VƏ ŞAHNABAT DASTANI

Dostum, mən bu dastanı
İstəmirəm uzatmaq,
İki sevən ürəyin
bir eşqi vardı ancaq.
Onlar cavan yaşında
Əhdü-peyman etdilər,
Fəqət həyat yolunda
Başqa yolla getdilər.
Şahnabat qoca bir alimə
ərə getdi,
Dövlətə, vara getdi
Qulağında, barmağında
parladı qiymətli daş-qaşı,
Hərdən gizli-gizli axdı
Şahnabatın göz yaşı.
Tahir əsgər getdi,
Döyüş meydanında yaralar aldı.
Oxudu,
hərbi rütbələr qazandı,
Yaralar sağaldı,
Saçlarına dən düşdü.
General oldu.
Gəncliyi yadına hərdən düşdü.
Təsəllisi şirin bir xəyal oldu.

Bütün yaralar sağaldı
Tahirin ürəyində;

Döyüş yarası, həyat yarası;
Bircə gizlin-gizlin qövr eləyib
heç sağala bilmədi
Vəfasız Şahnabat yarası.

ŞANLI YOL

Qışın təmiz qarı kimi
ağarsa da gur saçların,
Gözlərində sevinci var
coşqun, gözəl bir baharın...
Qəhrəmanlıq dastanıdır
həyatının hər varağı.
Əməyinlə, hünərinlə
yaratmısan bu növrağı.
Vətənimin göylərində
hökm edəndə qatı zülmət
Sən azadlıq şüarını
eləmişdin böyük məqsəd.
İnqilabın bayrağını
alıb ələ getdin öndə.
Döyüşürdün görmək üçün
Vətənini bir ağ gündə.
Arzuların çiçək açdı
xalqımızın əməyilə...
Azadlığın şəfəqləri
bəzəyəndə bu dünyanı.
Açdı doğma bacıların
məhbəs kimi o çadranı.
Savadsızlıq, avamlıqla
mübarizə apardın sən.
Azərbaycan qızlarını
nurlu yola çıxardın sən.
Yoldaş oldun, ana oldun,
xidmət etdin ellərimə.
İlham verdin, qüvvət verdin
şer yazan əllərimə...

Sən nəsillər yetişdirdin
təmiz vətən havasında.
Qardaşların şəhid oldu
Böyük Vətən davasında.
Sən yurdunun kədərilə
kədərlənib ağlamısan.
Ağır gündə vətəninin
yarasını bağlamısan.

* * *

Hər gün yeni bir zəfərə açılanda aydın səhər
Sənin parlaq gözlərində şəfəqlənir düşüncələr.
Sən vətənin baharıyla qocalmayıb cavan qaldın,
Azad, gözəl bir dünyada qüvvət aldın, ilham aldın.
Qışın təmiz qarı kimi ağarsa da gur saçların
Gözlərində sevinci var azad, şanlı bir baharın.

RƏVAYƏT

Süni nəvazişlər, soyuq busələr,
Təlxəklər, rəqqasələr,
Pəhləvanlar, ilanoynadanlar
Yorub usandırmışdı hökmdarı...

– Yeni bir əyləncə verin mənə barı. –
Əmr etmişdi xidmətçilərə,
Onu xoşhal etməyə çalışırdı hərə.
Tapıb bir nəfəri
gətirdilər bir gün.
Yığıldı tamaşaya
saray əhli bütün.
Təzə adam bir çuvaldız
çıxarıb taxdı yerə.
Uzaq məsafədən kiçik iynələri
Atıb keçirdi çuvaldızın
deşiyindən yüz kərə.

İynələr çuvaldız gözündən
keçib yerə düşdü dalbadal,
Güldürdü, əyləndirdi hökmdarı
İndiyə qədər görmədiyi
eşitmədiyi bu qəribə əhval.
Sənətini böyük məharətlə
işlədir deyə,
Hökmdar əmr etdi
yüz qızıl versinlər
xəzinədən bu bəndəyə.
Sonra da əmr elədi:
divan qursunlar,
Bu adama yüz zopa vursunlar, –
Belə boş yerə sərf etdiyi
üçün vaxtını.
Neyləsin zavallı,
qınamasın baxtını?!

ƏQRƏB VƏ QURBAĞA

Meşə yanırdı,
Kol-kos alovlanırdı,
Qurbağa canını
qurtarmaq üçün
yanğından
yaxınlaşdı çaya.
Üzüb keçmək istəyirdi o taya.
Əqrəb qaranəfəs yetirdi
özünü sahilə.
Tutdu qurbağanı dilə:
– Can qardaş,
yanır meşə,
Əlac elə sən bu işə.
Məni dalına götür,
Qarşı sahilə ötür.
Qurtar məni bu yanğından,
Yaxsa məhv olaram, aman!

Qurbağanın rəhmə gəldi ürəyi.
O hələ incitməmişdi
Hə bir qarışqanı,
nə bir milçəyi.
İnandı əqrəbə, əqrəbin dilinə,
Mindirdi onu öz belinə.
Yükü ağır olsa da qurbağanın
Birtəhər üzüb keçdi çayı.
Sahilə az qalmışdı,
yaxın idi suyun o tayı.
Əqrəb: – Qurbağa qardaş,
Gərək mən səni sancam, – dedi, – bu an!
Qurbağa inanmadı bu nankorluğa.
– Nə yamanlıq etdim ki, sənə
məni sancasan?
Səni yanğından, bəladan
qurtardım,
Dalıma mindirib sahilə
çıxardım.
– Bilirəm, bilirəm, – dedi əqrəb, – bunları,
Mənim xislətim budur,
sən incimə barı.
Zəhərimi tökməsəm,
özüm tələf olaram,
Həmişə əqrəb olmuşam,
yenə də əqrəb varam.

* * *

Mən sükut istəmirəm,
sükutun dili laldır.
Hələ məni yaşadan
bir qanadlı xəyaldır.
İstəyirəm quş kimi
qurum hər yerdə yuva,
Uçum kəpənək kimi
ruzgarı qova-qova

Axıb gedən çaylarda
ləpələrə qoşulum,
Ruzgar olum,
çöllərə, düzlərə düşsün yolum.
Şaxta dəysin,
qar dəysin,
çovğun dəysin canıma,
Dağlarda axan şimşək
girsin mənim qanıma.
Canlı insan xəyalı
iti ruzgar kimidir.
Mən sükut istəmirəm,
sükut məzar kimidir.

LAYLA

Pəncərədən ay baxır,
Yenə gözlərin axır.
Göylər atlas köksünə
Sarı ulduzlar taxır.
Layla, ceyranım, layla,
Körpə tərlanım, layla.

Ömrün-günün şad olsun,
Qüssə sənə yad olsun.
Yaxşı adlar içində
Adın yaxşı ad olsun.
Layla, ceyranım, layla,
Körpə tərlanım, layla.

Xoşbəxt ol, xoşbəxt yaşa,
Vəfalı ol yoldaşa.
Yaxşı işlərlə dolsun
Qoy ömrün başdan-başa.
Layla, ceyranım, layla,
Körpə tərlanım, layla.

ANAMA

(İlk şeirlərdən)

Sönür dünən gecə yandırdığın şam,
Xəstəyəm, verən yox bir az su, ana.
Vaqon yırğalayır səni bu axşam,
Ey uzaq yolların yolçusu, ana.

Darıxır ürəyim, yanır nəfəsim,
Başımın üstündə yoxdur bir kəsim.
Qəlbimi köz kimi yandırır, səni
Bir daha görməmək qorxusu, ana.

Döyür pəncərəmi bir acı ruzgar,
Bayırda bu axşam yenə boran var.
Bürüyüb qəlbimi coşqun arzular
Çəkilib gözümün yuxusu, ana.

ÇADRA

O ruhunu altında gizləyən qara pərdə
Artıq gözəl üzünün saflığından çəkilsin.
Düşsün ayaqlarıma, sürünsün bu yerlərdə,
Ana, artıq sən də bir zəncirli qul deyilsən...
İşıqlı gözlərinin yorğun qanadlarından
O qara rəngli qorxunc gecəni qaldır və at.
Günün nurlarını iç al şəfəqli yarından,
O gözəl gözlərində parlasın yeni həyat.

GÖYƏRÇİN QIZIN DASTANI

(Əfsanə)

Hər axşam gün batanda
Oxuyardı göyərçin.
Onun həzin nəğməsi
Ağlardı için-için,

"Hər il bahar suları
Axanda vətən sarı
Həzin-həzin anaram
Bizim yaşıl dağları.
O dağları gəzərdim,
Gül-çiçəklə bəzərdim.
Yar kimə könül versə
Mən uzaqdan sezərdim.
Sonalar, ay sonalar,
Uzaqlarda qaldı yar,
Məndən ona bu axşam
Həsrətlə salam apar.
Hanı göyərçin donum,
Geyim budağa qonum.
Budurmu, namərd fələk,
Mənim uğursuz sonum?"
Nəğmədəki ahu-zar,
Nazlı dilbərim, sənin
Dünyada nə dərdin var?
Göyərçinin gözü dolmuşdu yaşla,
Danış dərdlərini, dedim, di başla.
Söylədi göyərçin macərasını,
Açdı ürəyinin ilk yarasını:
"Qaçıb insanların arasından biz,
Dağlarda yaşardıq alnı ləkəsiz.
Bir dəstə qız idik quş paltarında,
Heç əli çatmazdı bizə yarın da.
Gəzərdik dağları, cumardıq gölə,
Qonardıq çiçəyə, qonardıq gülə.
Güldən, qərənfildən öpüş alardıq,
Hey mavi göylərdə qanad çalardıq.
Bizə yuva idi hər qaya, hər daş,
Bəzən də qalxardıq göylərə birbaş.
Enərdik bəzən də dəstəylə yerə,
Yorulub düşərdik göy çəmənlərə.
Ovçular hər yanda bizi arardı,
Lakin donumuzda min sehir vardı.

Bizi qorxutmazdı ovçu gülləsi,
Bu uca dağlarda bir insan səsi
Heç zaman salmazdı bizi talaşa,
Vururduq beləcə bir ömrü başa.
Bir gölün üstündən bir gün uçurduq,
Birdən dəstəmizlə dayanıb durduq.
Gəl çimək dedilər göyərçin qızlar,
Burda insanlardan nə iz, nə toz var.
Soyunub sahildə lap çılpaq olduq.
Yuyunub, silkənib ağappaq olduq:
Sən demə şahzadə dolaşırmış tək,
Sahildə qəflətən bizi görərək
Güdmüşdü xəlvətcə bizi uzaqdan,
Cummuşdu biz çimən sahilə haman.
Biz gölə cumaraq suda çiməndə,
Şahzadənin gözü qalmışdı məndə.
Alıb gizlətmişdi quş paltarımı.
Sındırıb atmışdı qanadlarımı:
Hamımız silkinib sudan çıxanda
Mən tapa bilmədim o yan-bu yanda
Göyərçin donumu, quş paltarımı,
İtirmişdim artıq qanadlarımı.
Şahzadə götürüb gətirdi məni,
Bir böyük saraya yetirdi məni.
Məni gəlin edib o gecə aldı,
Azad göyərçini qəfəsə saldı.
O gündən qul oldum mən yad ellərdə,
Söyləndi dastanım bütün dillərdə".

DAĞ YOLLARI

Qalxdıqca yuxarı dağ yollarıyla
İnsanın ürəyi fərəhlə dolur,
Döşündə buz kimi bulaqlar axan
Dağların səfası nə gözəl olur.

Çağırır yamacda çiçək çiçəyi,
Yaşıl çəmənlərin gözəl çiçəyi
Salanda başına əlvan ləçəyi
Bu xoş mənzərəyə könül vurulur.

Dağların yüz donu, yüz libası var,
İnsana can verən xoş havası var.
Qışda çovğun olub töküləndə qar,
Narın çiçəklərin al rəngi solur.

Əsməsin dağlarda xəzan yelləri,
Sinəsi həmişə güllü yaz olsun.
Sərin bulaqların əziz qonağı
Mey-məzəli dostlar, bir də saz olsun.

Dost gəlib su içsin buz bulaqlardan,
Bizdən ayrı düşsün qoy acı hicran.
Bu dağ yollarıyla yüksəlib qalxan
Xoşbəxt ömür sürən oğlan, qız olsun.

KARVAN BULUD

Karvan bulud, karvan bulud,
Gurlayırsan belə nədən?
Əbəs yerə səs salmaqdan
Həzz alırsan yoxsa ki, sən?
Karvan bulud, karvan bulud,
Boş-boş gəlib gurlama bax
Görürsənmi susuz yanır
Altındakı qara torpaq.
Bağrı yanıq səhralara
Yağış yağdır, su səpələ.
Əməyindən fayda çıxsın
Doğma yurda, doğma elə.
Ölkəmizin bağçaları
Yaşıllaşsın, açsın çiçək.

Boş gurlama, karvan bulud,
Yerə yağış yağdır görək.
Guruldayıb göy üzündə
Səs-küy salma, bircə dayan.
Nə fayda var, bu dünyada
Boş gurlayıb, səs salmaqdan.
Mənim könlüm qüssələnsə,
Qəm doldursa piyaləmi –
Alıb şeir yaradaram
Könlümdəki sısqa qəmi.
Həsrət mənə hücum çəksə
Əsir edib mən hicranı
Bir saf hissə çevirərəm,
Dar edərəm bu dünyanı,
Vicdanımda baş qaldıran
Hər faydasız hissə, dərdə,
Yol vermərəm yuva qura
Ürəyimdə hər namərdə.
Gəl dost olaq, yağış yağdır,
Qoy sulansın boz səhralar.
Boş-boş gəzir gurlamaqdan
Bu dünyada nə fayda var?
Görürsənmi, karvan bulud,
Sənin kimi mən də varam.
Ancaq yağış yağdırmasan
Mən boş yerə gurlamaram.

QANUN

Qanun var ki, insanları
kölə etmiş dünyada.
Qanun var ki, qulluq yazmış
babalardan övlada.
Qanun var ki, zəncirləmiş
çox arzunu, əməli.
Qanun var ki, bazarlarda
satmış nadir gözəli.

Qanun var ki, körpələri
səfil etmiş, ac qoymuş.
Qanun var ki, qocaları
çörəyə möhtac qoymuş.
Yer üzündən bu qanunu
silmək üçün hər zaman
Mübarizə yollarında
çox igidlər tökmüş qan.
Qanun var ki, zəncirləmiş
ruhu, dili, həvəsi,
Sürgünlərdən azadlıqçün
yüksələn məğrur səsi.
Əzəmətli bir milləti
qul eləyən qanun var.
İnsanlığı əzmək üçün
verilib bu qanunlar.
Yarandığı gündən bəri
insan oğlu hər zaman
Ədalətsiz qanunlara
qaldırmışdır min üsyan.
Azadlığın bayrağını
ucaldan bir insan da
Sədaqətin qanununu
yaratmışdır cahanda.
Köləliyə, əsarətə
qara məzar qazıldı.
Azad, gözəl bir ölkədə
azad qanun yazıldı.
İnsanların azad fikri,
eşqi, hissi, duyğusu,
Qocaların hər istəyi
anaların arzusu,
Alqışlayır bu qanunu
salamlayır hər zaman,
Əmək, hünər dünyasına
alqış deyir hər insan.

* * *

Açılmamış bir kitabdır hər insan ömrü,
Hər baharın bir məhəbbət macərası var.
Yazılmamış bir hesabdır hər insan ömrü,
Hər gecənin, hər gündüzün bir mənası var.

Boş keçməyir, düşündükcə, ömrün hər dəmi,
Yazılmamış bir dastandır könül aləmi.
Məhəbbətin fərəhlidir sevinci, qəmi,
Hər duyğunun, hər arzunun bir səfası var.

Kim çağırdı ürəkləri eşqə, həvəsə,
Bülbül nədən gül eşqiylə verir səs-səsə?
İnsan qəlbi çox möhtacdır isti nəfəsə –
Desələr də məhəbbətin min cəfası var.

SƏNİN ƏLLƏRİN

İnsanı həyatda gözəl eləyən
Əməkdir, əzizim, hər şeydən əvvəl.
Heç sənə bərabər ola bilərmi
Mənasız, məzmunsuz, avara gözəl?!

Pambıq çöllərində, dəzgah dalında
Faydalı iş görən insan gözəldir.
Qadınları çəkic və qələm tutan
İşıqlı və aydın cahan gözəldir.

Yüksək mədəniyyət kürsüləri də,
Uşaq böyütmək də sənə yaraşır.
Qalmazsan qardaşdan, dostdan geridə,
Coşqun həvəsin var, qaynayıb daşır.

Həyatın hər üzü sənə bəllidir,
Şanlı cərgələrə vardır öz yerin.
Eşqin könüllərdə min təsəllidir,
Əməklə gözəldir sənin əllərin...

OĞLUMDAN AYRILAN GECƏ

Ay gümüş dalğalarda
nazlanır gəlin kimi.
Ruzgar gəzir saçımda
körpəcə əlin kimi.
Yenə ay işığında
qumlar sanki incidir.
Körpə
Sən indi oyaqmısan,
gözündə yuxu varmı?!
Balasından ayrılan
ana gecə yatarmı?!
Mən hələ yatmamışam,
yanımda boşdur yerin,
Qapanırmı, a körpəm,
o uzun kirpiklərin?..
Bayaq günəş batanda
tozlu yollardan keçdin,
Ürəyin yanan zaman
sərin sulardan içdin.
Mən də sənin yanında
dayanmışdım elə bil,
O göyçək gözlərinlə
bircə şirin-şirin gül.
Sən tamaşa edirsən
heyran-heyran dağlara.
Bəzən yolayrıcında
baxırsan uzaqlara.
Anasının dalınca
quzular mələr keçir,
O körpə xəyalından,
ceyranım, nələr keçir?!
Uzaqda yalqız qalan
anan keçir fikrindən,
Bəlkə indi yatmayıb
onu düşünürsən sən?

Bəlkə ana həsrəti
saf könlünü qanadır.
Vətən mülkü, gül oğlum,
ən müqəddəs anadır!
O gördüyün göy bağlar,
yaşıl dağlar, dərələr,
Getdikcə hey dəyişən
fərəhli mənzərələr...
Sənin ana yurdundur,
sənin doğma ocağın,
Xoşbəxt ömür sürdüyün
nurlu, azad torpağın,
Nəfəsinə qarışan
dağların saf havası,
Qürbətdən uçub gələn
quşların şən yuvası,
Çiçəklərin xoş ətri,
axan suyun gur səsi,
Budaqlarda oynayan
ruzgarın zümzüməsi.
Dəryatək ləpələnən
sarı sünbül taxıllar,
Yollarda rast gəldiyin,
gördüyün hər nə ki var,
Azad torpaq, azad el
çiçəkli vətənindir,
Günəş, dəniz göy, hava,
qarlı dağlar sənindir!
Sev onları, əziz tut,
Vətəni yaxşı tanı.
Varlığınla, qəlbinlə
sən sev Azərbaycanı!

SABİRƏ

El üçün ağlayan
Gözündən olar, –
Dedi atalar.
Xeyr, möhtərəm atalar,

Ağır-ağır dövranların
Dərdini çəkən,
Yazıq doğma bacıları –
Fatma, Tükəzbanların
Dərdini çəkən,
Ehtişamı milləti
Talan olanın
Gününə ağlayan,
Ürəyini
Vətənin yaraları ilə dağlayan,
Əsarət, nadanlıq, cəhalət
Zəncirlərini qırmağa çağıran
Məktəb, maarif, mədəniyyət, –
Deyə bar-bar bağıran
Sənətkar gözündən olmadı.
Gözlərinin nuru onun
Şölə çəkdi
Məzlum Şərq ellərinə.
Gözlərinin yaşı onun
İnci kimi səpələndi
Yazıq vətən torpağının
Vaxtsız solan güllərinə.
Yanan bir ürəyin
Şöləsindən işıqlandı vətən.
Onun yanıqlı naləsindən
Oyandı Vətən,
Oyandı Vətən.

Ona atılan,
Qalaq-qalaq yığılan
Tənə daşlarından
Əbədi heykəl yarandı.
Vətənin azadlıq bayrağıyla
Parladı onun
Arzusu, andı.
İndi çöllər lalə daşqınıdır,
Çəmənlər lalədən yanır.

Azadlığın şövqü ilə
Elə bil alışıb vətən yanır.
El üçün ağlayan
Gözündən olmur, atalar.
Canlı göz yaşlarıyla,
Suvarılan çiçəklər
Vətən torpağında
Heç zaman solmur, atalar.

FÜZULİ

Gətirdim şimalın uzaq qoynuna
Qəlbimdə, qanımda səni, Füzuli,
Bir gəlib görəydin dost məclisində
Bu gözəl ellərdə məni, Füzuli.

Burda da göylərdə yanır ulduzlar,
Dalğalarda sönür həzin bir axşam.
Əfsanəyə bənzər bu gözəl yerdə
İnan, həsrətini unutmamışam.

Könül bir qəfəsdir xəyal olmasa,
Xəyalım çırpınır, uçur vətənə.
Harda olsa qəlbim eşqinlə yanar,
Mən sənin eşqinlə yaşaram yenə.

Könlümün ən böyük istəyi sənsən,
Sən mənə əzizsən canımdan belə.
Axşamlarım sənin sözünlə başlar,
Gecələrim keçər yenə sənինlə!

Sən ey azad eşqin ilk bəstəkarı,
Ey sənət evinin qoca memarı
Əyilir qarşında hörmətlə başım,
Doğma sənətimin ey ilk baharı!

Yalnız badi-səba açmaz qapını,
Sənin indi milyon dostların vardır.
Gəl ey böyük aşiq, sil göz yaşını,
Artıq günəş doğmuş, artıq bahardır!

NİZAMİYƏ

Keçdi Yerin üzərindən qərinələr bir an kimi,
Cahangirlər, hökmdarlar xəzəl olub külə döndü.
Lal gecələr dilə gəldi, fəryad etdi insan kimi,
Saysız ulduz karvanları çıraq kimi yandı, söndü.
Öz səmtini dəyişdirdi sakit axan çaylar belə,
Zəif-zəif sızan sular birləşərək döndü selə,
Neçə böyük cəzirə də yoxa çıxdı dənizlərdə,
Qılınc çalan min bir fateh ad qoymadı heç bu yerdə.
İllər gəlib keçən yoldan karvan keçdi, tozu itdi,
Bulud keçdi, kölgə saldı, Yer üzündə izi itdi.
Sənin ömür karvanının əbədiyyət oldu yolu:
Çəkdiyi yük – söz incisi, hər addımı şərəf dolu.
Səkkiz yüz il yaşatmışdır səni sənət, əmək, hünər.
Şöhrətinlə parlamışdır vətənində mavi göylər.
Kimsə cavab verməyəndə Füzulinin fəryadına,
Uzaq Bağdad ellərində səni saldı o yadına,
O baxanda qəmli-qəmli hər an ana yurda sarı,
Sızlamışdı ürəyində xalqın dərin yaraları.
Haqsızlığa, zülmə qarşı qaldıranda, şairim, baş,
Sənin təmiz gözlərində parlamışdı incitək yaş.
Qızılgüllər vağam olub tökülənde budağında,
Ölməz şair, sən can verdin, böyük günlər sorağında.
Qara ölüm söndürmədi şerindəki o atəşi,
Sən bilirdin doğacaqdı azadlığın al günəşi.
Əməllərin, arzuların bir həqiqət oldu bu gün,
Vətən mülkü deyil indi bir zamanlar sən gördüyün!
Bəzəmişdir dörd yanını bənövşələr, qızılgüllər.
Hər gün sənin qəbrin üstə açılıb bir gülgün səhər.
Leyla, Şirin əzbər deyir öz dilində kitabını,

Ana yurdun nəsil-nəsil bəsləyir hər xitabını.
Qalx, böyük şairim, bu gün heykəlin
Ucalmış o köhnə qəbrinin üstdə.
Hörmətlə görməyə gəlirlər səni
Ölkəmin qızları hey dəstə-dəstə...
Səni ziyarətə gəlmişdir bu gün
O dağlar gəlini xınalı kəklik,
Ellər şərəfinə qurmuş toy-düyün,
Dörd yanın bağçadır – güllük, çiçəklik...
Yaşını silmişdir sevdiyin gözlər
O nazənin gəlin, vəfalı dilbər –
Şirin də gəlmişdir hüzuruna, bax,
Onun təmiz qəlbi sənindir ancaq.
Məhəbbət dəmidir, bahardır bu gün,
Qızılgülün aşıb-daşan çağıdır,
Səhərin xoş əsən sərin yelləri
Leylinin saçını töküb dağıdır.
Yoxdur göz yaşları şaqraq səsində,
Hicran duyulmayır şikəstəsində,
İlk bahar son qoydu onun yasına,
Qovuşdu Məcnun da öz Leylasına.

DƏNİZDƏ BATAN GÜNƏŞ

Ey dostluqdan yorulmaz, mənim sevimli eşqim,
Sənə olan eşqimi söndürmədi illər də,
Yenə yardan-yoldaşdan ayrı düşüb günəşim!
Dolaşıram səninlə bu gözəl sahillərdə.

Ey günəş, qızıl günəş, dənizdə batan günəş!
Hər sabah şirin-şirin məni oyadan günəş!

Ölkəmin göylərində parlasın qanadların,
Nurundan qüvvət alsın çiçəklənən diyarın
Sinəsi açıq sənə bağçaların, bağların,
Gizli bir sevdası var sənə yaşıl dağların.

Ey günəş, qızıl günəş, dənizdə batan günəş!
Hər sabah şirin-şirin məni oyadan günəş!

Hər il qonağın olur min-min yerdən adamlar,
Ölkənin sarı saçlı, qara gözlü qızları;
Ölkənin şirin dilli, şirin sözlü qızları
Səndən qüvvət toplayar, hər gün səni salamlar.

Ey günəş, qızıl günəş, dənizdə batan günəş!
Hər sabah şirin-şirin məni oyadan günəş!

İstərəm ki, tellərin uzansın hər tərəfə,
Qalmasın Yer üzündə isinməyən bir bucaq;
Qalxsın, sənə qarışsın, səndən olsun bir dəfə
Gizlinlərdə, uzaqda çatıdayan hər ocaq.

Ey günəş, qızıl günəş, dənizdə batan günəş!
Hər sabah şirin-şirin məni oyadan günəş!

Ey dostluqdan yorulmaz, mənim sevimli eşqim,
Sənə olan eşqimi söndürmədi illər də,
Yenə yardan-yoldaşdan ayrı düşüb günəşim!
Dolaşıram səninlə bu gözəl sahilləri.

Ey günəş, qızıl günəş, dənizdə batan günəş!
Hər sabah şirin-şirin məni oyadan günəş!

BULUDLAR

Uzaq ölkələrə, iraq ellərə
Axışan buludlar, axan buludlar!
Bir ilıq nəvaziş umarkən sizdən,
Könlümü həsrətlə yaxan buludlar!

Mənim ki, ürəyim bir gül yarpağı,
Əsər, sizi görsə yorğun, buludlar!

Bəzən axan bir çay, bir sel sayağı, –
Bəzən ümman kimi durğun buludlar!

Açılsın göy üzü yığınınızdan,
Zərif bir hiss kimi titrək buludlar!
Döşənsin səmalar aydan, ulduzdan,
Hər axşam min kölgə, min rəng buludlar!

Solan çiçəkləri siz öpərsiniz,
Siz ey göy üzündə örpək buludlar,
Yanan səhralara su səpərsiniz,
Ey atlaz buludlar, ipək buludlar!

Uzaq ölkələrə, iraq ellərə
Axışan buludlar, axan buludlar!
Bir ilıq nəvaziş umarkən sizdən,
Könlümü həsrətlə yaxan buludlar!

DƏNİZ

Sevgimin tarixi səndən də dərin,
Mənim alnım açıq, qəlbim ləkəsiz:
Bu çırpınan könlüm, daşan hisslərim,
Nə qədər bənzəyir sənə, ey dəniz!

Sənin də həyatın coşqundur belə,
Mələr dalğaların, qaçar sahilə:
Bəzən də bənzərsən durğun bir gölə,
Yeni bir ilham ver mənə, ey dəniz!

Nə qədər çıldırsa ağ dalğaların,
Yenə də hissinin bir sahili var.
O dar sərhədlərdə sınar vüqarın,
Keçərmi sahili aşıb dalğalar?

Sənə təbiətin qocaman əli,
Bir sərhəd cızaraq, bir sahil qoymuş,
Bənzərimiz budur: könlümüz dəli,
Nə gecələr susmuş, nə gündüz doymuş...

Mənim sevinclərim, hissim bunu bil,
Sahilsiz bir dəniz hər yeri aşar.
Arada fərqimiz heç kiçik deyil:
Sən ha çırpınsan da, bir sahilin var.

ANA SƏSİ

Nə güclüsən ana səsi,
qadın səsi...
Ürəklərdən qopub gələn
odlu nəğmələr nəğməsi...
Səadətə, xoş günə çağıran bizi
ana səsidir.
Qüdrətiylə aşıb keçən
neçə qitəni, dənizi
ana səsidir.
Rəngi istər ağ olsun,
istər sarı, istər qara.
Analıq bir şərəfdir
insanlara...
Dünyada bir səs varmı
Ana səsi qədər doğma, mehriban?
İlk laylanı dinləmişik,
İlk şəfqət görmüşük
analardan.
Vətənin ağır günündə
döyüşə göndərib analar,
Qaranlıqlar ərisin deyə
Ürəyini məşələ döndərib analar.
Xoş gündə
könülləri xoş meh kimi
sarıb keçən ana səsidir.
Çətin yolları ümidlə, inamla
yarıb keçən ana səsidir.
Dünyada elə ana varmı
Körpələrin təbəssümünü
göz yaşına dəyişsin.

Dünyaları ona versələr belə!
Elə ana tapılarmı
Balasının bir gününə qıysın
"Sənə əbədiyyət bəxş edərik" –
desələr belə?!
Bütün canlılar qoruyub balasını –
Oddan, sudan, küləkdən...
İllərin, əsrlərin arxasından
Anaların səsi gəlir:
"Qoruyaram səni, körpəm,
qızılcadan, çiçəkdən".
Silinir ölkələrdən
Qızılcanın, çiçəyin izi...
Bombaların çopurundan,
Yanğınların ləkəsindən
Qoruyur analar,
Dünyamızı, yuvamızı, elimizi...
Ana sözü dayandırar
Dağdan qopan vəhşi seli.
Ana sözü oyandırar
Əsarətdə yatan eli.
Böyük ana,
Yaratmısan öz əlinlə
Keçmişi sən, bu günü sən.
Öz əlinlə qaldırarsan
Bu dünyanın küreyindən
Fəlakətin yükünü sən.
Bu gün bütün Yer üzündə
Səs-səsə versə analar
Sülhün qalib bayraqları
Hər tərəfə əzəmətlə dalğalanar.
Dinləyin, insanlar,
Analar danışır,
Üfüqlərdən-üfüqlərə dalğalanan
Anaların səsidir...
Bu səs
Səadət nəğməsi,
Ümid nəğməsidir...

ANAMIN SEVİNCİ

Mən anamın gözlərindən oxudum
Zəfər günü səadətin adını.
Bu dörd ildə gözü yaşlı görmədim
Bir kərə də olsa mən o qadını.
Ağır həsrət günlərində görmədim,
Mən görmədim o qadını ağlayan...
İndi onun gözlərində yaşdımı,
Sülhün təmiz şəhiydimi parlayan?
Ana! – dedim, o, boynuma sarıldı,
Birdən sevinc yaşlarında boğulduq,
Ana! – dedim – bu işıqlı dünyada
Elə bil ki, biz yenidən doğulduq.
Əziz ana, mən bu ağır illərdə
Səndən səbir, səndən təmkin öyrəndim.
Ölkəmizə basqın edən düşmənə
Tükənməyən qəzəb və kin öyrəndim.
Vətən ağır zülmətlərdən qurtardı,
Ana yurdum yenə çıraqban oldu.
Haqq uğrunda vuruşan bir ölkənin
Qazandığı şərəf oldu, şan oldu.
Dalğalansın vətənimin bayrağı,
Mərd oğullar doğan ana var olsun!
Yer üzündə kor niyyətlər daşıyan
İnsanlığın düşmənləri xar olsun!

DAŞ-QAŞLAR

Yaqut, zümrüd, firuzə
Yaman xoş gəlir bizə...
Gün kimi yanır almaz,
Brilyanta tay olmaz.
Ləlin yoxdur əvəzi,
Heyran qoyur hər kəsi.
Dənizdən çıxan inci

Deyir: mənəm birinci.
Qızıl bir yanda qalır,
Araya dava salır...
Büllur bərq vurub yanır,
Parlaq gümüş odlanır.
Gözəllik rəqabəti
Daş-qaşları alıbdır,
Birincilik həvəsi
Yaman qovğa salıbdır.
Siz ey qiymətli daşlar,
Ey cavahir, ey gövhər,
Sizi yerdən qaldıran
İnsan deyilmi məgər?
Alt qatlardan çıxarıb
Sizə şöhrət gətirən,
Sizi faydalı edib,
Həyata rövnəq verən
Bilin, *insandır*, *insan*.
İnsansız daşların da
İşi olmazdı asan...
Daşları canlı edən,
Şöhrətli-şanlı edən
İnsanın zəkasıdır.
Daşları canlandıran
İnsanlıq dünyasıdır.
Sizi insanlar tapır,
Sizi insan yüksəldir.
Sizi insanın əli
Gözəl edir, düzəldir!

BALALAR ÜÇÜN

LALƏ

Lalə günəşlə durur,
Lalə günəşlə yatır,
Anasını oyadır,
Atasını oyadır.

Lalə tezdən oyanır
Dodağında gülüşü,
Pəncərədən səsləyir
Yuvada yatan quşu.

Lalə oyanan kimi
Sanki bahar oyanır.
Bağçada əlvan güllər,
Bağda quşlar oyanır.

Dörd yaşına girəcək
Lalə hələ gələn il.
Lalə yatan otaqda
Saat da lazım deyil.

O, hamını qaldırıb
Səhər tezdən oyadır.
Lalə günəşlə durur,
Lalə günəşlə yatır.

BİR CÜT XURMA AĞACI

Elə bil ki, əkizdir
Bir cüt xurma ağacı.
Dayanıbdır yanaşı
Sahildə bu cüt bacı...